

## MƏZAHİR İSGƏNDƏR

# BU NECƏ DÜNYADI

*İti bazarında atından baha,*
*Mən belə dünyanın nəyindən küsüm?*

***M.Araz***

Acısı, şirini, şoru bilinməz,
Nə işığı, alatoru bilinməz,
Gor qazanı, nə də göru bilinməz,
Bu necə dünyadı, necə dünyadı?

Bilinməz aşı nə, duzu nə duzdu,
Köz bazarda bomboz küldən ucuzdu,
Kişisən de, bu əyridi, bu düzdü,
Bu necə dünyadı, necə dünyadı?

Yayı od ələməz, qışı üşütməz,
Qartalı qarğanı göydən düşürtməz,
Bülbül nalə çəkər, gülü eşitməz,
Bu necə dünyadı, necə dünyadı?

Gözə kədər, ürəyə qəm naxışdı,
Sağ ağladı, solu bildi yağışdı,
Qurd başına çaqqal-çuqqal yığışdı,
Bu necə dünyadı, necə dünyadı?

Gözə nə oldu ki, öyülən qaşdı?
Düz sözün kəlləsi qazanda xaşdı,
Nadanlar məclisdə aqildən başdı,
Bu necə dünyadı, necə dünyadı?

İnsan, insan dərisini aşladı,
Dil mələdi, qulaq dili daşladı,
Söysəm, yenə deyəcəklər başladı...
Bu necə dünyadı, necə dünyadı?

Dağ aşındı, başı yerə sığındı,
Su keçmədi, boğazlara tıxındı,
Boğmalandı, kim ki haqqa yaxındı,
Bu necə dünyadı, necə dünyadı?

Ötüb keçib gur çayları şər axış,
Mərd olana nə yol qalıb, nə çıxış,
Məzahir, köçünü eylə yır-yığış,
Bu necə dünyadı, necə dünyadı?

# ŞEİR YAZA-YAZA QOCALMIŞAM MƏN

Qalayıb da bu üst-üstə yaşımı,
Şeir yaza-yaza qocalmışam mən.
Uca tutub el-obada başımı,
Gün deyil, hər anı borc almışam mən,
Şeir yaza-yaza qocalmışam mən.

Deməmişəm hədər yerə sözümü,
Etməmişəm külə, kölə közümü,
Nə yummayıb bir an belə gözümü,
Bir yeyib, beş dözüb, ac qalmışam mən,
Şeir yaza-yaza qocalmışam mən.

Gəzmədim dünyanı heç veyil-veyil,
Salmadım eyş-işrətə də nə meyil,
Nə vardan, dövlətdən, sərvətdən deyil,
Olduğum torpaqdan güc almışam mən,
Şeir yaza-yaza qocalmışam mən.

Od almışam eşq qalayan ocaqdan,
Gül dərmişəm əl yetməyən budaqdan,
Gənclər gəzən, qartal qonan o dağdan
Deməyin düşmüşəm, alçalmışam mən,
Şeir yaza-yaza qocalmışam mən!

Olmamışam meyil bir pis işiylə,
Dağlanmışam hərdən qızmar şişiylə,
Məhəbbətdə, sədaqətdə dişiylə
Dağ yarıb, Fərhaddan tac almışam mən,
Şeir yaza-yaza qocalmışam mən.

Bir qərib səsinə hay olanlara,
Haqqı, ədaləti arayanlara,
Can deyib, Vətənə yarayanlara
Qələmlə, dəftərlə əl çalmışam mən,
Şeir yaza-yaza qocalmışam mən.

Məzahir, sözünü söylə birbaşa,
Nə dolandır, nə də ki düş təlaşa,
De, dağdan da hündür olan bu yaşa
Dırmanıb, ağ üzlə ucalmışam mən,
Şeir yaza-yaza qocalmışam mən.

## *AXI, MƏN KİMƏM*

Mən mənə məhkumam, mən mənə hakim,
Mən məni yarğılar, mən məndən qaçar.
Mən mənim yoluma dığırladar daş,
Mən mənim yoluma işıq, nur saçar.

Mən məni yarğılar, mən məndən qaçar,
Mən mənə aşkaram, mən mənə sirrəm.
Mən məni yandıran gur od, gür atəş,
Mən məni donduran buza əsirəm.

Mən mənə aşkaram, mən mənə sirrəm,
Mən məndən güclüyəm, mən məndən zərif.
Bu nə sirdi, möcüzədi, nə işdi,
Mən məni həcv edər, mən məni tərif.

Mən məndən güclüyəm, mən məndən zərif,
Mən mənə ovçuyam, mən mənə ovam.
Mən mənə sularda bir qızıl balıq,
Mən mənə atılan toram, tilovam.

Mən mənə ovçuyam, məm mənə ovam,
Mən mənə dərmanam, mən mənə dərdəm.
Mən mənə yovuşmaz, mən məni atmaz,
Mən mənə namərdəm, mən mənə mərdəm.

Mən mənə dərmanam, mən mənə mərdəm,
Mən mənə yaxınam, mən məndən uzaq.
Mən mənim əlimdən edər şikayət,
Həm quzuyam, həm ac gəzən yalquzaq.

Mən mənə yaxınam, mən məndən uzaq,
Bir bilməm, anlamam axı, kiməm, kim?
Mən məni yarğılar, mən məndən qaçar,
Mən mənə məhkumam, mən mənə hakim...

## *BU EŞQİN AXIRI BİR DİVANƏLİK*

Bu eşqin axırı bir divanəlik,
Bu eşqin əzəli çılğın bir həvəs.
Bu eşqin axırı həsrət, intizar,
Bu eşqin əzəli bir can, bir nəfəs...

Bu eşqin əzəli çılğın bir həvəs,
Olub da dağ çayı, aşıb-daşarsan.
Tanımazsan özün də öz-özünü,
Təzədən doğulub, başqalaşarsan.

Bu eşqin axırı həsrət, intizar,
Ya yanıb, ya donub, buz bağlayarsan.
Qalan günlərinə kəsilib yağı,
Ötən günlərinə yas saxlayarsan.

Bu eşqin əzəli dünyaya salam,
Qarlı qış da gözlərində yaz olar.
Sevincin, fərəhin dərindən-dərin,
Kədərin damladan dapdayaz olar.

Bu eşqin axırı qəmli bir nağıl,
Nöqtələr ah çəkər, vergüllər yanar.
Hər sözün, kəlmənin başının üstə
Əjdahalar, qara divlər dayanar.

Bu eşqin əzəli şirincə röya,
Dadlı bir dünyadı, dadıb yaşarsan.
Ax!.. Elə xoşbəxtsən, necə də şənsən!
Özün də özünə baxıb, çaşarsan...

...Şəm ol, olum mən də sənə pərvanə,
Yanmayan bir şəmə nə pərvanəlik?
Gəl sevib-sevişək, gülüm, olsa da
Bu eşqin axırı bir divanəlik...

## *OYANDIR*

Mən kiməm?.. Səbrinə bir qul, bir kölə!
Mən kiməm?.. Əlindən yurdu alınmış!
Özümə küfrümdən, küdurətimdən
İçim də, çölüm də viranə qalmış.

İçim də, çölüm də viranə qalmış
Özümə küfrümdən, küdurətimdən.
Min heyrət buna ki, məncə kim yeyər,
Kəsib ürəyindən, kəsib ətindən?..

Mən kiməm?.. Qeyrətin qarğış hədəfi!
Mən kiməm?.. Daş üstə daşı qalmamış!
Torpağını torbalayan sağ əli
Nədən ilan olub, sol əl çalmamış?

Nədən ilan olub, sol əl çalmamış,
Torpağını torbalayan sağ əli?
Çəki varmı ki qoyulsun, çəkilsin
Şeytandan baş olan insan əməli?..

Mən kiməm?.. Özündən özü didərgin!
Mən kiməm?.. Çiçəyi, gülü çalınmış!
Əl qılınc, ayağım üzəngi görməz,
Min heyrət!.. Beynim də yuxiya dalmış.

Min heyrət!.. Beynim də yuxuya dalmış,
Əl qılınc, ayağım üzəngi görməz.
Ay Allah, silkələ, məni oyandır,
Olmayım bu zülmə lal-qaradinməz.

Olmayım bu zülmə lal-qaradinməz,
Ay Allah, silkələ, məni oyandır!
Qaldır məni Sən Qıratın belinə,
Məndən mənə olan zülmü dayandıq!

## *DÜNYA BELƏ GƏLİB…*

Əziz dostum, danışmayaq dünyadan,
Dünya belə gəlib, belə gedəcək.
Kim gül olub, kim gül dərib ömürdən,
Kimi verib ömrü yelə, gedəcək.

Dünya belə gəlib, belə gedəcək,
Çay gurlayıb, bəzən də ram olacaq.
Şaxta kəsib, buz dondurub, od yaxıb,
Kimi gülüb, kimi gözün sıxacaq.

Dünya belə gəlib, belə gedəcək,
Gah gün çıxıb, gah da zülmət çökəcək.
İlk baharda çiçəkləyən ağaclar
Payızında yarpaqların tökəcək.

Dünya belə gəlib, belə gedəcək,
Bir tapılan bir gündə də itəcək.
Kiminin yolunda nərgiz, yasəmən,
Kimin də yolunda tikan bitəcək.

Dünya belə gəlib, belə gedəcək,
Kimi yerə, kimi göyə baxacaq.
Kim büdrəyib, düşüb yerə atından,
Kimisi də at üstünə qalxacaq.

Dünya belə gəlib, belə gedəcək,
Qurdlar ulayacaq, itlər hürəcək.
Kimi yığıb, sürüsünü arana,
Kimisi də yaylaqlara sürəcək.

Dünya belə gəlib, belə gedəcək,
Kim oynayıb, kimisi züy çalacaq.
Verdiyini əvvəl-axır təbiət
Oynayandan, çalandan da alacaq.

Dünya belə gəlib, belə gedəcək,
Kim yüklənib, kimisi yük çatacaq.
Tülkü tülkü olub, aslan da aslan,
Quşlar da öz quşluğunda qalacaq.

Dünya belə gəlib, belə gedəcək,
Kimi kişi, kimi arvad olacaq.
Kimi kimə doğmadan da doğmaca,
Kimi kimə yaddan da yad olacaq.

Dünya belə gəlib, belə gedəcək,
Güllər açıb, ətir saçıb, solacaq.
Bir anda qəlbinə sevinc, fərəh, şən,
Bir anda qəm, qüssə, kədər dolacaq.

Dünya belə gəlib, belə gedəcək,
Kimi gedib, kimi dönüb gələcək.
Kimi bu dünyaya deyib də fani,
Kimisi də əbədidi biləcək.

Dünya belə gedib, belə gedəcək,
Kimisi ac, kimisi tox öləcək.
Kimi tutub bu dünyanı beşəlli,
Kimisi də son tikəsin böləcək.

Dünya belə gəlib, belə gedəcək,
Kimi görüb, kimisi də görəcək.
Budağından ömrün şirin, həm acı
Kimi dərib, kimisi də dərəcək...

...Əziz dostum, danışmayaq dünyadan,
Dünya belə gəlib, belə gedəcək.
Kim gül olub, kim gül dərib ömürdən,
Kimi verib ömrü yelə, gedəcək.

## *EŞQİMİN*

Qolları bağlıdı, yolları daşdı,
Sinəsi dağlıdı, gözləri yaşdı,
Fəryadları dağda-daşda ulaşdı,
Od olub, içimə dolan eşqimin.

Dilindən qan gələn yaralı quşdu,
Təbibsiz, dərmansız saralı, huşdu,
Kimlər duydu, kimlər halın soruşdu
Özün didib, saçın yolan eşqimin?

Hər gecəm cəhənnəm, gündüzüm gecə,
Bir görüb, almadı kor fələk vecə,
Çəkim nisgilini, çəkim mən necə,
Ah, gülü burnunda solan eşqimim!

Eylədilər Məzahiri gülündən,
Gül xəbər tutmadı zar bülbülündən,
Axı, hara gedim, Allah, əlindən,
Nə yeri, nə göyü olan eşqimin?

## İLK MƏHƏBBƏTİM

Solmayan ilk eşqim, məhəbbətimdə
Durmuşam Məcnundan yenə başda mən.
Ah, onu itirib bir bağ-bağçada,
İndi də gəzirəm dağda-daşda mən.

Durmuşam Fərhaddan, Kərəmdən uca -
O olan ilk eşqim, məhəbbətimdə.
Hələ də, hələ də, hələ qönçədi
İlk eşqim, illk sevgim, məhəbnətim də.

Hələ də ürəyim çırpınıb durur,
Hələ də gözlərim onun yolunda.
Hələ də, hələ də qönçə məhəbbət
Saralmayıb, solmayıbdı kolunda.

Hələ də, hələ də qönçə məhəbbət
Məni dəli edib, salır dağlara.
Gecə də, gündüz də xəyallarımda
Dönürəm o mənli-onlu çağlara...

Gecə də, gündüz də xəyallarımda
O bir işıq olub, içimə dolur.
Yrəyi sinəmdə, gözü gözümdə,
Əlləri əlimin içində olur.

Ürəyi sinəmdə, gözü gözümdə,
Sanki bircə alırıq da nəfəsi.
Sanki artır gündən-günə, hələ də,
Mənim ona, onun mənə həvəsi.

Sanki bircə alırıq da nəfəsi,
Sağı sağım, solu da ki solumdu.
Mən gedib-gəldiyim yolum onunku,
O gedib-gəldiyi mənim yolumdu...

...Bir dünyam var, dünyalara bənzəməz,
Dopdoluyam sevincimlə, dərdimlə.
Orda yaşayıram mən öz ömrümü,
Solmayan ilk eşqim, məhəbbətimlə.

## YAXŞIDI

Qafil, demə bilmədiyin yoxundu,
Mən biləni sən də bilsən, yaxşıdı!
Nahaqqa haqq, haqqa nahaq deyəndə,
Nə mən, nə o, nə də ki sən yaxşıdı!

Söz düz olmaz, dəyişdirsən hərfini,
Ya can verər, ya yetirər məhvini,
Onun, bunun günahını, səhvini
Dalda deyil, üzə desən, yaxşıdı!

Balıq çıxmaz hər atılan tilovdan,
Köz arama çör-çöp yaxan alovdan,
Namərd süfrəsində ətli plovdan
Öz süfrənin tozun yesən, yaxşıdı!

Qarışdırma nə doğunu, batını,
Elə sür ki, yol yormasın atını,
Tərifləyib mərdin yeddi zatını,
Namərdin adını söysən, yaxşıdı!

Məzahir, çıxarma bunu da yaddan,
Uzaq dur şöhrətdən, hər quru addan,
Damarın almasa qan Ordubaddan,
Öz-özünü özün döysən, yaxşıdı!

## DİVANƏLƏR ODASIYAM

Qərib olan, üz mən sarı,
Mən qəriblər adasıyam!
Şəm vurğunu pərvanələr,
Divanələr odasıyam!

Dağam, dağa hə lalə də,
Gəl gəz, dal min xəyalə də,
İç ki, qızıl piyalədə
Alovlu eşq bitasıyam!

Məndən keçər mərdin izi,
Keçin, görün mərdinizi,
Verin mənə dərdinizi,
Bir uduma udasıyam!

Ay Məzahir, nə and-aman?
Sən, dediyin deyil zaman,
Düz deyib də olan yaman,
Lal dillərin duasıyam!

## ƏLVİDA

Gəldi yelin nəs əsimi,
Duydum ölüm nəfəsini,
Unut mənə həvəsini,
Günəş, ulduz, ay, əlvida!

Bu nə toydu, bu nə oyun?
Düşdüm, oldum oyum-oyum,
Gözyaşımla yar qolboyun
Axıb gedən çay, əlvida!

Bu yol görüb məni naşı,
Min dərd verdi, dedi, - daşı,
Dəli gəzən dağı-daşı,
Ay səs-səda, hay, əlvida!

Fərəhim, şənim olmadı,
Gülüm, gülşənim olmadı,
Başa düşənim olmadı,
Olanım ah-vay, əlvida!

İnad atından enmədin,
Nə dindirdin, nə dinmədin,
Sən ki məni bəyəmmədin,
Fani dünya, day, əlvida!

## MƏN VƏTƏNLİ VƏTƏNSİZƏM

Bu nə yazı, bu nə qədər,
Qəm yükümü kim tərpədər?
Dünya, sən də ol dərbədər,
Qar altında itən izəm,
Mən vətənli vətənsizəm!

Elə yanıb, ah, küləm ki...
Necə deyib day, güləm ki?
Bir nəğməkar bülbüləm ki,
Gülüm solub, çəmənsizəm,
Mən vətənli vətənsizəm!

Qəm əritdi bu şəmi də,
Qurutdu son rişəmi də,
Susuz qalan bir zəmidə
Sünbül olub, day, dənsizəm,
Mən vətənli vətənsizəm!

Gün üzünə yaxıb ləkə,
Şər dırmanıb, cıxıb dikə,
Xəncərlənib tikə-tikə,
Əlsiz, qolsuz, bədənsizəm,
Mən vətənli vətənsizəm!

Atdı tufan, dolu qarmaq,
Budağımda hanı yarpaq?
Ey ulu yurd, ana torpaq,
Səndən olub, day,sənsizəm,
Mən vətənli vətənsizəm!

## SÖNƏN MƏNƏM, SÖNDÜRƏN SƏN

Dünya, küsüb o gül yardan
Dönən mənəm, döndərən sən.
Eşqin Məcnun zirvəsindən
Enən mənəm, yendirən sən.

Bu dərdə kim gərə sinə?
Süründüm hey sinə-sinə,
Yelkənsiz qəm gəmisinə
Minən mənəm, mindirən sən.

Daş üstündə bir daşım da
Qalmaz oldu gənc yaşımda,
Bir hey üzüb, gözyaşımda
Çimən mənəm, çimdirən sən.

Gün ay oldu, ay oldu il,
Nə üz qaldı, nə də mitil,
Borc alıb da quşlardan dil,
Dinən mənəm, dindirən sən.

Məzahirə atdın tilov,
At eylədin, saldın cilov,
Dilim-dilim, alov-alov
Sönən mənəm, söndürən sən.

## BOZQURD NƏDƏN ULAMADI

*Bu ulayan indi o bozqurddumu?*
*Çaqqal-çuqqal aldı üstün yurdumun,*
*Aman Tanrım!.. Saatımız durdumu?*
*Susdi qopuz, sındı qılınc, o andı,*
*Gəl, Oğuz xan!.. Oğuz eli talandı!*
***Müəllif***

Gülü soldu, kol qalmadı,
Sağ talandı, sol qalmadı,
Day, vətənə yol qalmadı,
BOZQURD nədən ulamadı?

Bu yurd başdan-başa qandı,
Günü, ili min əfğandı,
Kür odlandı, Araz yandı,
BOZQURD nədən ulamadı?

Mizrab vurdu, saz çalmadı,
Salamın yay, yaz almadı,
Vətəndə xoş hal qaımadı,
BOZQURD nədən ulamadı?

Güldüyü bir an olmadı,
Dərd oldu, dərman olmadı,
Nə dən, dəyirman olmadı,
BOZQURD nədən ulamadı?

Nə bağban, nə bağ qalmadı,
Nə ürək, nə yağ qalmadı,
Uçulmayan dağ qalmadı,
BOZQURD nədən ulamadı?

Halını bilən olmadı,
Dərdini bölən olmadı,
Vətənçün ölən olmadı,
BOZQURD nədən ulamadı?

Nə kök qaldı, nə də budaq,
De, yapışıb, hardan tutaq?
Ax!.. Bu dərdə olub ortaq,
BOZQURD nədən ulamadı?

## DAĞLAR

Üstümüzə yağı gəldi,
Çapıb da sol-sağı, gəldi,
Ayrılığın çağı gəldi,
İtdi ağlım, huşum, dağlar!

Ürək yandı, kam almadı,
Zülm çağladı, ram olmadı,
Obam köçdü, day qalmadı
Nə yuvam, nə quşum, dağlar!

Gün-gündüzüm oldu gecə,
Göz görmədi, yolu seçə,
Bir də bundan belə, necə
Saz dindirib, coşum, dağlar?

Soldu gülü-gülzarım da,
Sovuldu söz bazarım da,
Son bilməyən ah-zarımda
Hansı nəğmə qoşum, dağlar?

Qan ağlar söz zəmim dənsiz,
Bədən başsız, baş bədənsiz...
Vətən mənsiz, mən Vətənsiz,
Edilmişik pərşum, dağlar!

## DƏLİYƏM MƏN

Ey soruşan məni məndən,
Qar altda qar gülüyəm mən.
Kərəmlərin ah-naləsi,
Məcnunların külüyəm mən!

Kəklikləri uçub gedən,
Əliklərin qurdlar güdən,
Üz-gözünü yırtıb-didən
Lal dağların diliyəm mən!

Dərmanıyam hər xəstənin,
Avazıyam min bəstənin,
Uca "Rast"n, "Şikəstə"nin
Bəmiyəm mən, ziliyəm mən!

Ələsgərin şirin sözü,
Kor Veysəlin görən gözü,
Həm mizrabın, sazın özü,
Ədalətin əliyəm mən!

Kiməm, nəyəm, mənə əyan,
Yol getmərəm o yan-bu yan,
Ay Məzahir, day, et bəyan,
Dəliyəm mən, dəliyəm mən!

## OXU MƏNİ

Dağdı, daşdı mənə nənni,
Kim keçib ki belə fənni?
Alıb oxu, ey müğənni,
Aradığın bəstə mənəm!

Atım keçər kimin atı?
Həm doğuyam, həm də batı,
"Segah", "Şüştər", həm "Heyratı",
"Şur" ilə "Şikəstə" mənəm!

Oxu məni, əgər ərsən,
Ətri-behişt güləm, dər sən,
Bir oxiyub, dirilərsən,
Məst edən həm məst də mənəm!

Həm ələyəm, həm ələnən,
Həm donub, həm od bələnən,
Can verib, dərman dilənən,
Həm təbib, həm xəstə mənəm!

Həm lal sükut, həm çal-çağır,
Həmi yüngül, həmi ağır,
Həm mülayim, həm də fağır,
Həmi tərsdən-tərs də mənəm!

Dediyimə nə day, yozu?
Gün götürməz üzə bozu,
Kitab-dəftər, yazı-pozu,
Həmi məktəb, dərs də mənəm!

Çağır, hayla məni, gələm,
Pisə, yamana əngələm,
Vallah, dağdan-daşdan gələn
Bu əks-səda, səs də mənəm!

Məzahir söz dolu mədən,
Dayan da dur, ey tən edən!
Həm sevib, həm küsüb gedən
Bu dünyadan kəs də mənəm!

## BİR HƏSRƏTİN, BİR DƏ MƏNƏM

*Nə demək, qismətim buymuş, hələ ki,*
*Gözyaşı, iztirab, həsrət, intizar!..*
*Qərib olan kim deyibdi gülə ki?*
*Qəribin məzarın rüzgarlar qazar.*
***Müəllif***

-----------

Bir həsrətin, bir də mən...
Gülüm, yaman sərxoşam,
Alıb ələ qədəhi, bircə qurtum içmədən.
Axıdıb qərib-qərib göz yaşımı yollara,
gedirəm hara gəldi.
Mən getdikcə, getdim hey...
Mən olduqca odlu ney,
Günlər günə calandı, gün-gündən qara gəldi.

Dönüb, arxamca baxdı getdiyim yol, düz, dərə,
Xoş bir günüm, xoş anım bir gülüb,
bir qalxmadı bir ağ atlı yəhərə.
Mən yorğun, yol uzalı...
Rəngim-rufum, sifətim zəfərandan sozalı.
İndi də oturmuşam azğın, quduz it kimi
dalğaları qapışan.
öz-özüylə tutaşıb, öz-özüylə çarpışan
fırtınalı dənizin sahilində tənha, tək.
Gözyaşlarım od olub,
Axıb süzür dənizə qanımla ətək-ətək.
İçim də, çölüm də divanə sanki,
Nəyim var, olubdu viranə sanki...
İçimdəki kədəri, dərdi, qəmi, qüssəni,
Gözümdəki kədəri, vahiməni, təşvişi
Görüb, bilmək istəsən, eh, buna day, nə var ki?
Çətinmiş sanki?!
Onda,"Çarmıxa çəkilmiş İsa",
"Pompeyin son gecəsi", "Laokoon" və...
Və "Doqquzuncu bal" rəsmlərinə bax.
AX!.. AX!.. AX!..
Heç baxma!.. Baxsan, məni görəcəksən.
Baxsan, özün-özünə yagı,
Özün-özünə qəvi kəsilib,
özün-özünü döyəcəksən.
Baxsan, dırnaqlarını gəmirib yeyəcək,
Oddan-alovdan köynək geyəcək,
özün-özünə dəli deyəcəksən.
Baxsan, Allahı söyəcəksən...
Baxma!..
Baxma!..
Baxma!..
Baxma ki dindən, imandan, inamdan olmayasan!
Baxma ki, solmayasan...
Gecə keçib yarıdan.
Bu gecə də keçəcək keçən gecələr kimi.
Mənsə boynuqısılı yetim cücələr kimi
Qısılmışam yenə də bir divarın küncünə -
Dərdin, qəmin əlindən,
Bir həstətin, bir də mən...

## YOLUM HAQQ YOLUDU

Məni məndən soranlara cavabım:
Güllərə ətirəm, bülbülə güləm.
Yolum haqq yoludu, iman yoludu,
Gedirəm, əlimdə bir dəftər-qələm.

Güllərə ətirəm, bülbülə güləm,
Ətrim pis qoxumaz, dilim çor deməz.
Kim qoxlaya, kim dindirə, olar saz,
Nə içi, nə çölü, ruhu göynəməz.

Ətrim pis qoxumaz, dilim çor deməz,
Qoxlayan məst olar, dindirən razı.
Ətrim itər, dilim də ki lal olar,
Əgər ola kimsə məndən narazı.

Ətrim itər, dilim də ki lal olar,
Oynatmasam mən ruhları yerindən.
Sağalar o anda, tapar şəfasın -
Kim anlaya dediyimi dərindən.

Yolum haqq yoludu, iman yoludu,
İnanım Allahdı, kitabım Quran.
Doğulandan üz tuttuğum bu yolda
Kimsə olmaz məni qovub, durduran.

İmanım Allahdı, kitabım Quran,
Oxuyub, öyrənib, gözüm doymamış.
Onlara mehrimdən, məhəbbətimdən
Həm içim, həm çölüm nura boyanmış.

Onlara mehrimdən, məhəbbətimdən
Hər sözüm, hər kəlməm bir inci oıur.
İlham pərim uçub, çıxıb yarışa,
Söz olan meydanda birinci olur.

Hər sözüm, hər kəlməm qalxar at üstə,
Haqq olan tərəfə çapar, yorulmaz.
Bir əldə gül, bir anda Haqq qılıncı,
Çapar... çapar... önündə sədd qurulmaz...

...Ey haqq gəzən!.. Di durma, düş izimə,
Sənin də, mənim də artsın savabım.
Yolum haqq yoludu, iman yoludu,
Məni məndən soranlara cavabım.

## AY ŞEİRLƏRİM

Qəmli nəğmələrim, ay şeirlərim,
Sizsiniz ömrümün günəşi, ayı.
Kimim var, nəyim var axı, dünyada,
Qələmdən, dəftərdən, sizdən savayı?

Kimim var, nəyim var sizdən savayı?
Sizsiniz qanadım, qolum da mənim.
Fikirlər dəniztək çalxalananda,
Bir mayaq oldunuz yolumda mənim.

Sizsiniz dünyanı görən gözlərim,
Ah necə, ah necə sizsiz dayanım?
Sizsiniz dövlətim, olan varım da,
Sizsiniz dar gündə dostum, həyanım.

Fikrim, xəyalım da sizinlə gəzdi,
Dedim ki, qoy hopsun ətriniz mənə.
Bilsəniz, duysanız, necə əzizdi,
Çiçəkdən, güldən də xətriniz mənə!

Qələmdən, dəftərdən, sizdən savayı
Kimim var, nəyim var, salam göndərim?
Salamlar!.. Salamlar!.. Salamlar sizə,
Qəmli nəğmələrim, ay şeirlərim!